15 fevral 2012.

ELÇİN

# K A Ş E Y İ N  T A L E Y İ

(Hekayə)

## 1.

… sonra dan yerinin şəfəqləri sökülməyə başladı və bu dəfə də hələ səhərin gözü açılmamış – saat 5 radələrində kişi sövq-təbii olaraq, elə yuxuda ikən səksəkə içində xoruzun o bədnam səsini gözləməyə başladı və doğrudan da on-on beş saniyədən – bu saniyələr yuxuda çox uzun çəkirdi – sonra qart bir xoruz banı yenə bütün həyət-bacanı, o cümlədən də şüşəbəndi başına götürdü.

Sübh tezdənin bu qartımış xoruz banı kişiyə o qədər təsir etdi, onu o qədər yandırıb-yaxdı ki, özünü saxlaya bilməyib, dodaqaltı donquldaya-donquldaya xoruzun da, onun yiyəsinin də qarasına bir-iki biədəb söz dedi.

Düzdü, kişi dodaqaltı donquldadı, amma arvadı onun donqultusunu eşitdi və gözünü açmadan yuxulu-yuxulu:

- A kişi, ayıb deyil sənə?- dedi.- Özün də mollasan…- Sonra o biri böyrü istə çevrilib, gözəl yuxusuna davam etdi.

Molla Zeydulla eləcə kal-kal dikəlib döşəkdə oturaraq, dərindən nəfəs aldı və uzun, arıq barmaqları ilə alnını ovuşdura-ovuşdura, söyüşcül adam olmadığı üçün, qəflətən ağzından çıxan sözlərin xəcaləti içində fikirləşdi ki, bu xoruz gör, onu nə günə salıb ki, ağzından bu cür sözlər çıxır, özü də arvadın yanında… Sonra arxasını ərinə çevirib böyrü üstə yatan arvadına baxdı – xoruzun banı arvadın heç vecinə deyildi, eləcə yuxusunun dalını görürdü – və sinə dolusu əsnədi.

Neçə müddət idi ki – xüsusən bu cırhacır isti yay aylarında – Molla Zeydulla sübh tezdən əməlli-başlı bir xoruz məşəqqəti yaşayırdı və gündən-günə daha da qartan o mənfur banın sayəsində səhər çağlarının gözəlliyindən əvvəllər olduğu kimi ləzzət ala bilmirdi.

Zeydulla sovet vaxtı orta məktəbdə otuz ildən artıq idman müəllimi işləyib, təqaüdə çıxmışdı, Sovet İttifaqı dağılandan sonra isə mollalıq etməyə başlamışdı, amma ürəyinin dərinində o, nə idmançı, nə də molla idi, o – şair idi. Bu mənada yox ki, şeir yazırdı, sadəcə, özünü

şair təbiətli bir insan hesab edirdi və onun bu fikrində həqiqət var idi. Uzun ömrü boyu səhər-səhər xoruz banı ilə yox, öz xoşu ilə yuxudan oyanıb, elə yorğan-döşəyin içindəcə quşların səsinə, dənizin uğultusuna, küləkli günlərdə küləyin vıyıltısına qulaq asmaq bu kişinin gündəlik həyatının ən sevimli çağları idi. Düzdür, hələ əllinci illərdə idman texnikumunu bitirib, otuz ildən artıq bir müddət Bakıdakı məktəblərdən birində idman müəllimi işləmişdi və hər gün səhər tezdən kəndinin stansiyasında elektrik qatarına minib Bakıya gedirdi, axşam da kəndə qayıdırdı, ancaq onun əsil şakəri idmanın tədrisi yox, klassik poeziya, bu poeziyanın obrazlar aləmi idi, islam tarixi və fəlsəfəsi idi, özbaşına öyrəndiyi ərəb və fars dillərini də babat bilirdi. Abşerondakı bu kənd ilə Bakı arasında 35 dəqiqəlik yol idi və Zeydulla müəllim elektrik qatarında bu 35dəqiqəlik yolu gedəndə də, qayıdanda da şagirdlərin gələcək idman nailiyyətləri barədə, hətta onların sağlamlığı barədə də yox, Füzuli misralarının, Xəyyam rübailərinin sirri-sehri barədə düşünürdü və bəzən içində xəcalətə bənzər bir hiss də yaşayırdı ki, özünün pedeqoji fəaliyyətinə bu dərəcədə bignədir. Ancaq nə etmək olardı, Allah hərəni bir cürə xəlq edir və yəqin elə bütün bunlara görə də sovet hakimiyyəti çökəndən sonra onun mollalığa başlamağını kənd camaatı təbii qəbul etmişdi, Molla Zeydulla təkcə öz kəndlərində yox, qonşu Abşeron kəndlərində də nüfuz sahibi olan bir şəxs, din xadimi idi.

Onun yaşı xeyli olsa da, cavan qalmışdı və hamı bunu kişinin içgi içməməyi, siqaret çəkməməyi, ehsan məclislərində açıq-aşkar görünən toxgzlüyü ilə, bəziləri də idmanla yozurdu. Düzdür, Molla Zeydulla heç vaxt səhərlər idman etmirdi, qalan yozumlarda isə, şübhəsiz ki, həqiqət var idi, amma belə saz qalmağının əsil səbəbini onun özü hamıdan yaxşı bilirdi: Molla Zeydullanın ürəyi təmiz idi, bu insanda paxıllıq deyilən şey yox idi və o, təbiətdən həzz almağı bacarırdı, Allaha da, dinə də sidq-ürəkdən bağlı idi, tez-tez beynində Nizaminin, Hafizin, Ruminin müdrik misraları səslənirdi və kişi belə hesab edirdi ki, sazlığının da əsil səbəbi elə bunlardır.

Molla Zeydullanın doğma və əziz bir sirri də var idi və bu sirri göydə Allahdan, yerdə isə arvadından və həkim Cəfərovdan başqa heç kim bilmirdi, çünki Molla Zeydulla bu sirri aşkar etməkdən utanırdı – nə üçün utanırdı? – bu hissi söz ilə ifadə etmək mümkün deyildi. Məsələ burasında idi ki, son üç-dörd ildə hərdən birdən-birə göydən kişiyə vəhy gəlirdi və özündən asılı olmayaraq qələmi əlinə alıb, o vəhyin gətirdiyi qəzəl misralarını kağıza köçürürdü və beləliklə, klassik bir qəzəl nümunəsi yaranırdı. Bu qəfil yaradıcılıq prosesini arvaddan gizli saxlamaq mümkün deyildi və arvad bilirdi ki, Molla Zeydulla şeir yazır, amma bu şeirlərin içində nə var idi? – bilmirdi, çünki kişi bu şeirləri ona oxumurdu və arvadın özünün də buna mənəvi ehtiyacı yox idi. Bu qəzəllərdən yalnız həkim Cəfərov xəbərdar idi, çünki Molla Zeydulla ilə uşaqlıq yoldaşı idilər və kənddə də həkim təmkinli, ağzıbütöv və savadlı bir adam kimi tanınırdı, buna görə də Zeydulla öz ürək sirrini yalnız ona etibar edib, qəzəlləri bir neçə dəfə yalnız ona oxumuşdu…

… Və son vaxtlar bu qartımış xoruz banı Molla Zeydullanın rahat və klassik poeziya məhəbbəti sayəsində mənən zəngin həyatına əməlli-başlı haram qatmışdı: gecələr yalnız öz kəndlərində deyil, qonşu kəndlərdə də yas məclisləri aparırdı, səhərlər isə o xoruz banına görə doyunca yata bilmirdi, bütün günü yuxusuz olurdu və bu da onun adət etdiyi gündəlik həyatına, güzəranına açıq-aşkar xələl gətirirdi. Xüsusən də bu yay aylarında ki, otaq isti olduğu üçün, arvad yorğan-döşəyi şüşəbənddə salırdı – bu da əlli ilin adəti idi – o xoruz qartımış səsiylə, elə bil, qonşu həyətdə yox, kişinin qulağının dibində banlayırdı, Molla Zeydulla da yuxudan oyanıb, daha yata bilmirdi.

Arvadın işi yaxşı idi, bayaqkı kimi yüngülcə oyanıb, təzədən fil yuxusuna gedirdi, ancaq Molla Zeydulla nə illah edirdi, yata bilmirdi, gözəl quş səsi, ya da ki, dəniz uğultusu ilə yox, vaxtsız xoruz banı ilə ayağa qalxıb, daha müdrük kəlamları, böyük Şərq şairlərinin gözəl poetik misraları yox, sabahkı gün də səhərin gözü açılmamış xoruz banına oyanacağını fikirləşirdi və əvvəllər olduğu kimi, çay-çörəkdən əvvəl həyətə düşüb, fikrindəki o gözəl misralar ilə bir yerdə, ağacların, gül-çiçəyin arası ilə gəzməyə də həvəsi olmurdu, şüşəbənddə oturub, təsbehini çevirə-çevirə arvadın yuxudan oyanmağını gözləyirdi ki, çay-çörəyini yesin.

Bütün bunlar azmış kimi, belə vaxtlarda Molla Zeydullanın ağlına həyatın mənası ilə, ölümlə, axirətlə bağlı cürbəcür bədbin fikirlər gilirdi və o mənfur xoruz banı sayəsində sübh tezdən belə bədbin fikirlərə düçar olması kişinin qanını daha da qaraldırdı.

Və sübh tezdənin bu qartmış xoruz banından sonra o vəhy də daha gəlmirdi…

## 2.

Ağarzanın xoruzu bir neçə ayın ərzində təkcə bu kənddə yox, bütün ətraf kəndlərdə məşhur olmuşdu və Ağarzağanın özü də elə bu xoruza görə məşhurlaşmışdı, çünki bu xoruzun sahibi olmaqdan savayı Ağarzanın məşhurluğu üçün başqa bir səbəb yox idi.

Dünyanın hansı rəngini desəydin, Kaşeyin tüklərində, qanadlarının, uzun, dimdik və pırpızaq quyruğunun ləçəklərində tapmaq olardı və bu sağlam tüklər, ləçəklər də xüsusən gün işığında par-par parıldayaraq rəng alıb, rəng verirdi. Uzun boynunu elə dik tuturdu ki, elə bil, Allahın bacısı oğludur, bütün kürreyi-ərzə yuxarıdan aşağı baxırdı, tünd boz rəngli dimdiyi isə, xalis qartal dimdiyi idi, enli sinəsi, iri caynaqları var idi, uzun sözün qısası, Kaşey xoruz yox, möcüzə idi.

Kənddə kiminsə ağzından çıxmışdı, bu xoruza:

- Alə, bu Kaşeydi e, Kaşey!..- demişdi və bundan da sonra xoruzun adı həmişəlik Kaşey qalmışdı.

Kaşeyin ən qızğın azarkeşlərindən biri İstanbuldan gəlmiş və dəniz kənarında təzə salınmış «Ələddinin çırağı» İstirahət Mərkəzində stomotoloq həkim işləyən Feyzi bəy idi və Feyzi bəy ilk dəfə Kaşeyi meydanda görəndə:

- «Kaşey» nə deməkdir?- soruşmuşdu və həmişə onun suallarına həvəslə cavab verən kənd cavanları bu dəfə də stomotoloqa başa salmışdılar ki, «Kaşey» rusların nağılında bir cadügərdir, əla kinosu da var, ona «Kaşey-bessmertnıy» deyirlər, yəni «Ölməz Kaşey», çünki Kaşey elə güclüdür ki, onu elə-belə öldürmək mümkün deyil.

Feyzi bəy bu cavabdan razı qalmışdı, çünki bu xoruz həqiqətən də Kaşey deyilən o cadügər kimi bir şey idi, ona qalib gəlmək mümkün deyildi və Feyzi bəy yüz faiz əmin idi ki, Kaşey İstanbulda olsaydı xoruzlar arasında şəksiz çempion olardı.

Məsələ burasında idi ki, Ağarzanın xoruzu, yəni Kaşey Abşeronun bu sahildəki kəndlərində xoruz döyüşlərinin bir nömrəli qəhrəmanı idi və onun vuruşduğu xoruz döyüşlərinə o qədər adam yığışırdı ki, bu döyüşlərin köhnə azarkeşi olan qəssab Mirzəağa:

- Alə, Ağarza,- deyirdi.- Sən bu Kaşeyin qədrini bil!.. Sən ölərsən, mən ömrümdə hələ bu qədər adam görməmişəm ki, xoruzların tamaşasına yığışsun!..

Sovet vaxtı milisioner işləyən və kəntdə xoruz döyüşlərinə yığılmış adamları qovalayan, mərc üçün pul yığmağa qoymayan, Sovet İttifaqı dağılandan sonra isə polis nəfəri olan və özü də xoruz döyüşlərinin əməlli-başlı azarkeşinə çevrilmiş pəltək Səfər də müdrükanə görkəm alıb:

- Q-q-qədeş düz deyir!..- deyirdi.- Kaşeyin q-q-qədrini bil!..

Ancaq Ağarzaya belə sözlər deməyin, əslində, heç bir mənası yox idi, çünki Kaşeyin qədrini bilmək az idi, bu xoruz Ağarza üçün oğlu Gülbaladan sonra, dünyanın ən əziz, ən sevimli, ən dəyərli bir məxluqu idi.

Cins döyüş xoruzları vardı ki, onların yumurtalarını Türkiyədən, Gürcüstandan, Ukraynadan, İrandan gətirib qırt düşmüş böyük anac toyuqların altına qoyurdular və onları yumurtadan çıxan kimi xüsusi təlimlə böyüdürdülər. Kənddə, görünür, Fidel Kastronu dünyanın ən güclü adamlarından biri hesab etdiklərinə görə, söz yayılmışdı ki, Kaşeyin yumurtası Kubadan gəlib.

- Alə, Ağarza, Kaşey doğrudan Kubadan gəlib?- soruşanda, Ağarza mat-mat bu sual sahibinin üzünə baxıb, iki əlini də Kaşeyə tərəf uzadırdı:

- Alə, begəm görmürsən?!.

Yəni Kaşeyin Kubadan gəlməsi, gün işığı kimi aydın bir şeydir də… Və əslində, Kaşeyin Kubadan gəlməsinə, elə bil, daha Ağarzanın özü də sidq-ürəkdən inanmağa başlamışdı.

Kaşeyin isə, aydın məsələdir ki, Kubaya heç bir dəxliyyatı yox idi və o vaxt ki, Ağarzanın arvadı Əminə:

- Toyuq qırt düşüb, getginə, bazardan beş-altı dənə yumurta al gətir, onları da altına qoyaq.- demişdi, Ağarza da bazardan beş dənə təzə yumurta almışdı və Əminə də o yumurtaları öz yumurtaları olmayan, amma qırt düşmüş o həyət toyuğunun altına qoymuşdu, Kaşey də o yumurtaların birindən dünyaya peyda olmuşdu.

Ancaq Kaşeyin bu həyat tarixçəsini Ağarza ilə Əminədən başqa

heç kim bilmirdi və yəqin ki, heç vaxt da bilməyəcəkdi, çünki Ağarza nə qədər cani-dildən Kaşeyə bağlı idisə, Əminə də bir o qədər Kaşeydən razı idi və yalnız ona görə yox ki, Kaşey evə əməlli-başlı pul gətirirdi – bu öz yerində, ən əsası isə Kaşey peyda olandan sonra, heç kimin ağlına sığmayan bir hadisə baş vermişdi – Ağarza birdən-birə içgini atmışdı.

Kaşeyə qədər hərdən elə ölüm-itimsiz axşamlar olurdu ki, kəntdə də, ətraf kəntlərdə də yas məclisi qurulmurdu və belə gözəl axşamlarda Molla Zeydulla uzun illərdən bəri səliqə ilə yığıb düzəltdiyi şəxsi kitabxanasından seçib bir kitab götürürdü – ya klassik Şərq şairlərinin qəzəllərini, ya bu qəzəllərə yazılmış şərhləri, ya da keçmiş mütəfəkkirlərin müdrik kəlamlarını bir daha gözdən keçirirdi, sonra evdən çıxıb həyət-bacanı dolaşırdı, sonra da darıxmağa başlayırdı və həyət qapılarının ağzındakı skamyada oturaraq, təkbaşına çay içə-içə öz-özünə deyinirdi:

- Camaatın qonşusu adam olur, oturub çay içirsən, söhbət edirsən, nərd oynayırsan, mənim də qonşum – pyaniskə...

Və doğrudan da, Kaşeyə qədər Ağarza «pyniskə Ağarza» idi və Əminə onun xəcalətindən, dükan-bazar bir tərəfə, hətta suyu da evdə qızdırıb çimirdi, çünki kəntdəki hamama da gedəndə arvadlar qarğa-quzğun kimi onun başının üstünü alıb: «Ağəz, o pyaniskə sənün tayundu?..»- deyib, ağızlarına gələni danışırdılar.